İPƏK YOLU, No.2, 2022, səh.5-14



# QƏRBİ AZƏRBAYCANIN MÜHÜM TƏHSİL OCAĞI - İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

**Qabil Əliyev**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Qabil-Aliyev@mail.ru

**Xülasə.** Məqalədə XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağı olmuş İrəvan Müəllimlər Seminariyasının tarixi və fəaliyyəti araşdırılır. Seminariyanı bitirən azərbaycanlı gənclərin müxtəlif bölgələrdə məktəb müəllimi kimi çalışaraq, gənc nəslin maariflənməsinə verdiyi böyük töhfə təhlil edilir. Daha sonra Rusiya və Avropa universitetlərində ali təhsil almış, önəmli vəzifələrdə çalışmış seminariya məzunlarının bir qisminin də həyat və fəaliyyəti öyrənilmişdir.

**Açar sözlər:** İrəvan quberniyası, müəllim seminariyası, məktəb, azərbaycanlı tələbələr, ibtidai məktəb müəllimi.

## AN IMPORTANT CENTER OF EDUCATION IN WESTERN AZERBAIJAN – ERIVAN TEACHERS' SEMINARY

**Gabil Aliyev**
*Baku State University, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The Yerevan Teachers' Seminary was a very important educational institution in Azerbaijan in the late 19th and early 20th centuries. After graduating from the seminary, young Azerbaijanis worked as school teachers in different regions and made a great contribution to the education of the younger generation. They also took an active part in the cultural life of the regions where they worked, collected materials about their history, traditions and folklore, published interesting articles in periodicals. Some of the graduates of the seminary subsequently received higher education in Russian and European universities and held responsible positions in the country.
**Keywords:** Erivan province, teacher's seminary, school, Azerbaijani students, elementary school teacher.

## ВАЖНЫЙ ОЧАГ ОБРАЗОВАНИИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА – ЭРИВАНСКАЯ УЧИТЕЛЬСКАЯ СЕМИНАРИЯ

**Габиль Алиев**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме:** В статье рассматривается история и деятельность Ереванской учительской семинарии, которая была очень важным учебным заведением Азербайджана в конце 19-начале 20 веков. Анализируется большой вклад азербайджанской молодежи, окончившей семинарию, в воспитание подрастающего поколения, работая школьными учителями в разных регионах. Изучены жизнь и деятельность некоторых выпускников семинарии, позже получивших высшее образование в российских и европейских университетах и работавших на ответственных должностях.
**Ключевые слова:** Эриванская губерния, учительская семинария, школа, азербайджанские студенти, учитель начальной школы.

## 1. Giriş

İrəvan şəhəri orta yüzilliklərdən Azərbaycanın qərb bölgəsinin mühüm iqtisadi-ticarət mərkəzi olmaqla yanaşı, həm də çoxlu sayda məktəb və mədrəsənin fəaliyyət göstərdiyi böyük əhəmiyyətə malik maarif-mədəniyyət beşiyi idi. Rusiya ağalığı dövründə İrəvanın quberniya

mərkəzi olması, onun bu mövqeyini daha da möhkəmləndirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında 29 dekabr 2021-ci il tarixli sərəncamında xüsusi vurğulanmışdır ki, "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır" [1]. Müəllimlər Seminariyası açılması isə bu şəhəri XIX əsrin son - XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağına çevirdi.

İrəvan Müəllimlər Seminariyası Rusiya imperiyası Dövlət Şurasının qərarının 20 oktyabr 1880-cı il tarixdə çar II Aleksandr tərəfindən təsdiq edilməsi əsasında yaradılmışdı. Çar II Aleksandrın təsdiq etdiyi həmin qərarda yazılmışdı: "İmperiyada Müəllimlər Seminariyası və Zaqafqaziya (Cənubi Qafqaz – Q.Ə.) Müəllimlər Seminariyası haqqında Əsasnamələr əsasında Kutais və İrəvan quberniyalarının hər birinin mərkəzində bir Müəllimlər Seminariyası açılsın. Ştat vahidləri üzrə layihələr əsasında seminariyaların saxlanılması üçün Kutais Seminariyasına 27800 rubl, İrəvan Seminariyasına 28350 rubl ayrılsın" [10, т. 55-й, отд. I, с.630].

Qeyd etmək lazımdır ki, sonrakı dövrdə İrəvan Müəllimlər Seminariyasının saxlanmasının illik xərcləri əsasən dəyişməz qalmışdı. Məsələn, İrəvan quberniyasının 1891-ci il üzrə şərhinə görə, həmin il Seminariyanın və onun nəzdindəki nümunəvi ibtidai məktəbin, həmçinin pansionun saxlanmasına xəzinə tərəfindən 28173 rubl xərclənmişdi [8, за 1891 г., с.89] 1894-1896-cı illərdə də illik xərc elə bu məbləğdə olmuşdu [8, за 1894 г., с.31; 8, за 1895 г., с.32; 8, за 1896 г., с.32].

İrəvan Müəllimlər Seminariyası 1881-ci il noyabrın 8-də rəsmən fəaliyyətə başladı. Seminariya icarəyə götürülmüş binada yerləşirdi [13, 1898 г., №4, с.48]. Yaradıldığı vaxt Seminariyanın müəllim-işçi heyəti 11 nəfər idi. Seminariyanın ilk direktoru Yakov Stepanoviç Suşşevski olmuşdur. O, bu vəzifədə 1894-cü ilin sonuna kimi çalışmışdı [5, на 1897 г., адр.-кал., с.286].

İrəvan Müəllimlər Seminariyasında açıldığı zamandan digər Cənubi Qafqaz seminariyalarında olduğu kimi, rus dili və ədəbiyyatı, Rusiya tarixi, riyaziyyat, təbiət elmləri kimi məcburi fənlərdən əlavə, yerli xalqların dini qaydaları, dilləri tədris edilirdi. İrəvan Müəllimlər Seminariyasında da ilk vaxtdan tatar (Azərbaycan – Q.Ə.) dili və İslam dini qaydaları – şəriət dərslərinin tədris edilməsinə başlanmışdı. Rusiyanın hakim dairələri bu seminariyanın Qafqaz tatarı adlandırdıqları Azərbaycan türklərinin minillərboyu davamlı yaşadığı İrəvan mahalında yaradılmasının, bu regionda yerli əhalinin əksəriyyətini müsəlmanlar təşkil etməsinin fərqində idilər. İrəvan Müəllimlər Seminariyasında lap başlanğıcdan müsəlman dini təliminin – Şəriətin illik tədrisi üçün çar III Aleksandr 30 sentyabr 1881-ci il tarixdə 500 rubl vəsait ayrılması haqqında ayrıca fərman vermişdi [3, л.2].

Seminariyanın İslam dini üzrə ilk ilahiyyat müəllimi – Şəriət dərslərini keçən Axund Məmmədbağır Qazızadə idi. O, həm də tatar (Azərbaycan – Q.Ə.) dili müəllimi idi [5, на 1883 г., адр.-кал., с.91].

İrəvan Müəllimlər Seminariyasında bundan əlavə, Qafqazın digər müəllim seminariyalarda olduğu kimi tələbələrə kənd təsərrüfatının müxtəlif sahələri üzrə dərslər keçirilirdi. Onlara həmçinin skripkada çalmaq, meteoroloji müşahidə aparmaq öyrədilirdi [13, 1898, №4, c.49]. 1890-cı illərin ortalarında İrəvan Müəllimlər Seminariyasında əvvəliki dövrdə tədris edilən dərslərə əlavə olaraq, hüsnxət, rəsmxət və rəsm, coğrafiya fənləri keçilməsinə, cildləmə işi, xarrat, tokar sənətləri öyrədilməsinə başlanmışdı [5, на 1897 г., адр.-кал., с.286].

Qafqaz təqviminin Qafqaz Tədris Dairəsi müdirinin 1883-1884-cü illər üzrə hesabatları əsasında dərc etdiyi məlumatlara görə həmin dövrdə seminariyada 13 nəfər çalışmışdı. Y.Suşşevskinin 1885-ci ildə İrəvan qubernatoruna göndərdiyi məlumatda isə o, seminariya yaradıldığı vaxtdan 16 nəfərlə çalışdığını qeyd etmişdi. Onlardan 4 nəfəri Rusiyadan, 12 nəfəri Qafqazın müxtəlif bölgələrindən gəlmişdilər. Seminariyada çalışanlardan 8 nəfərinin ali, 6 nəfərinin orta təhsili var imiş, 2 nəfər isə ibtidai təhsil müəssisəsinin məzunu olmuşdu [12, c.56]. Qafqaz təqviminin 1885-1890-cı illər üzrə məlumatlarında da İrəvan Müəllimlər Seminariyasının pedaqoji heyətinin sayı həmin dövrdə 13 nəfər göstərilmişdir. Görünür ki, S.Suşşevski seminariyanın texniki heyətini də nəzərə almaqla 16 nəfər işçisi olduğunu bəyan etmişdi.

Seminariyada təhsil müddəti 4 il idi: hazırlıq sinfi, 1-ci sinif, 2-ci sinif və 3-cü sinif. Seminariyaya müxtəlif hazırlıq səviyyəsində olan gənclər qəbul edildiyi üçün tədris prosesi fərqli olurdu. İlkin təhsili zəif olanlar öncə hazırlıq sinfinə qəbul edilirdi. İkisinifli və üçsinifli ibtidai məktəbləri bititənlər daha savadlı və intizamlı olduqları üçün, birbaşa seminariyanın birinci sinfinə qəbul edilir, xəzinə hesabına təhsil alırdılar. Qafqaz Təhsil Dairəsi müdirinin 1890-cı il üzrə hesabatına görə Seminariyada bir tələbənin illik təhsil xərci orta hesabla 322 rubl, pansionda qalma xərci 194 rubl təşkil etmişdi [5, на 1891 г., отд.2, с.35].

Seminariyaya 15-18 yaş arasındakı oğlanlar qəbul edilirdi. Öz hesabına təhsil alanlar ilkin olaraq 30 rubl, sonra isə hər tədris ili üçün 180 rubl vəsait ödəyirdilər [5, на 1910, отд. справ., с.916]. Seminariyaya qəbul olmaq istəyən gənclərin ikisinifli məktəbin proqramı səviyyəsində bilikləri yoxlanırdı. Hər bir gənc seminariyaya qəbulla bağlı yoxlamalara buraxılması üçün ərizə yazmalı, doğum şəhadətnaməsi, daha öncə təhsil aldığı məktəbdən qiymətləri və davranışı haqqında arayış təqdim etməli idi. Əgər heç bir məktəbdə oxumamışdısa və ya kursu bitirməsindən bir il keçmişdisə, əxlaqi davranışı haqqında sənəd verməli idi. Bundan əlavə, həmin gənclərdən ictimai mənşəyi haqqında arayış, hərbi çağırış yaşına çatanlardan isə həm də qeydiyyata alındığı çağırış məntəqəsindən vəsiqə tələb edilirdi. Seminariyaqəbul edilən hər kəs oxuduğu müddətdə tətil vaxtı öz hesabına evinə gedəcəyini öhdəsinə götürməli idi [5, на 1910, отд. справ., с.916].

Seminariyanın fəaliyyətə başladığı birinci tədris ilində 42 tələbə qəbul edilmişdi. Onlardan hazırlıq və 1-ci sinif komplektləşdirilmişdi. 1882-ci ildə 2-ci sinif açıldı və tələbələrin

sayı artaraq 54 nəfərə çatdı. 1883-cü ildə isə sonuncu – 3-cü sinif də açıldı [11] və tələbələrin sayı 69 nəfərə çatdı. Seminariyada ilk vaxtdan ilahiyyət fənnini pravoslavlıq üzrə baş keşiş Qriqori Qambarov, islam (Şəriət) üzrə axund Məmmədbağır Qazızadə, erməni-qriqorianlıq məzhəbi üzrə keşiş Gevond Atanasyans tədris edirdilər. Rus dili və ədəbiyyatı, Rusiya tarixi fənlərini İvan Klopov, riyaziyyatı Aleksandr Lyaudanski, təbiət elmlərini Andrey Karamosko, tatar (Azərbaycan – Q.Ə.) dilini axund Məmmədbağır Qazızadə, erməni dilini Sergey Bek-Nazaryan, gimnastikanı Adolf Rayteman, musiqini Emil Bayor, nəğməni Bazileviç tədris etməyə başlamışdılar. Hazırlıq sinfində İvan Tamamşev dərs deyirdi. Seminariyanın həkimi Mixail Porçinski, katibi (kargüzarlıq işi ilə məşğul olan – Q.Ə.) Bazileviç idilər [5, на 1883 г., адр.-кал., с.91].

İrəvan Müəllimlər Seminariyası yaradıldığı vaxt yerli xalqlardan olan və məktəb təhsili olmayan uşaqları Seminariyada təhsil almağa hazırlamaq üçün, onun nəzdində nümunəvi ibtidai məktəb yaradılmışdı. Həmin ibtidai məktəbin ilk müdiri və müəllimi 1887-cı ilə kimi Dmitri Popov olmuşdu [5, на 1886 г., адр.-кал., с.85; 5, на 1889 г., адр.-кал., с.73-74]. 1888-ci ildə bu ibtidai məktəbə Nikolay Suvorov müəllim təyin edilmiş [5, на 1890 г., адр.-кал., с.73-74], bir il sonra isə həmin məktəbin müdiri vəzifəsinə təyinat almışdı [5, на 1891 г., адр.-кал., с.163]. Qafqaz Tədris Dairəsi müdirinin təqdimatı ilə 1905-ci ildə İrəvan Müəllimlər Seminariyası nəzdindəki birsinifli ibidai məktəb ikisinifli məktəbə çevrildi [9, за 1905 г., с. XXII]. Seminariyanın tələbələri bu ibtidai məktəbdə pedaqoji təcrübə keçir, müəllimliyin sirlərinə yiyələnirdilər. Pedaqogika fənnindən dərsləri və pedaqoji təcrübəni bir qayda olaraq seminariyanın direktoru aparırdı.

1884-ci ildə Seminariyada 78, Seminariyanın nəzdindəki nümunəvi ibtidai məktəbdə 70 şagird təhsil alırdı [8, за 1884 г., таб. 9, с.69-70]. 1888-ci ilin sonuna olan məlumata görə Seminariyanın şəxsi heyəti yenə də 13 nəfər olaraq qalırdı. Lakin tələbələrinin sayı artaraq 83 nəfərə çatmışdı. Həmin vaxt Seminariyadan 19 nəfər: 5 tələbə xəstəliyinə, 13 tələbə ailə vəziyyətinə, 1 tələbə də davranışına görə xaric edilmişdi. Seminariyanın hazırlıq sinfinə 26, 1-ci sinfinə 5 nəfər bərpa olunmuşdu. Elə həmin il Seminariyanı 10 nəfər bitirmiş və onlardan 6 nəfəri kənd müəllimi kimi fəaliyyətə başlamışdı [8, за 1888 г., с.131].

1888-ci ildə Seminariyanın nəzdində fəaliyyət göstərən nümunəvi ibtidai məktəbdə 66 şagird oxuyurdu. Onların 10 nəfəri tatar (azərbaycanlı – Q.Ə.), 8 nəfəri rus, 4 nəfəri gürcü, 44 nəfəri erməni idi [8, за 1888 г., с.131].

İrəvan quberniyasının 1891-ci il üzrə şərhində qeyd olunmuşdur ki, həmin il İrəvan Müəllimlər Seminariyasında 66 tələbə oxuyurdu. Onların 27 nəfəri hazırlıq sinfində, 19 nəfəri 1-ci, 16 nəfəri 2-ci və 4 nəfəri 3-cü sinifdə təhsil alırdı [8, за 1891 г., с.89]. Həmin il Seminariyanı 12 nəfər bitirmiş və ibtidai kənd məktəblərində pedaqoji fəaliyyətə başlamışdı. 12 nəfər tələbə isə müxtəlif səbəblərdən Seminariyada təhsilini yarımçıq dayandırmışdı [8, за 1891 г., с.89]. 1894-cü ildə isə 5 nəfər seminariyanı yarımçıq tərk etmiş, 9 nəfər də seminariyanı bitirib ibtidai kənd məktəbi müəllimi olmuşdu [8, за 1894 г., с.31].

Ümumiyyətlə, bu illərdə Qafqazda mövcud olan Cənubi Qafqaz (Qori), Stavropol, Kutais və İrəvan Müəllim Seminariyalarının müəllim hazırlığı fəaliyyəti çox məhdud idi. Qafqaz Təhsil Dairəsi müdirinin 1891-ci il üzrə hesabatına görə, həmin ildə Qafqazda mövcud olan 4 müəllim seminariyasını cəmi 50 nəfər bitirib ibtidai məktəbdə müəllimlik etməyə başlamışdı [5, на 1893 г., отд. стат., с.80].

1895-ci ildə İrəvan Müəllimlər Seminariyasında təhsil alan tələbələrin sayı əvvəıki illərlə müqayisədə kəskin şəkildə azalmış, 49 nəfərə düşmüşdü. Bu tələbələrin 16 nəfəri hazırlıq sinfində, 18 nəfəri 1-ci, 8 nəfəri 2-ci, 7 nəfəri 3-cü sinifdə oxuyurdu. Həmin il 14 nəfər seminariyanı müvəffəqiyyətlə bitirib pedaqoji fəaliyyətə başlamış, 3 nəfər isə təhsilini yarımçıq qoyub getmişdi [8, за 1895 г., с.29].

Həmin dövrdə Seminariyada fundemental və tədris kitabxanaları mövcud idi. Bu kitabxanalarda 8972 rubl dəyəri olan 3896 adda 8320 cild kitab mühafizə olunurdu. Bundan əlavə, həmin kitabxanalarda 3301 rubl dəyərində 885 dərs vəsaiti də var idi. Seminariyanın fizika kabinetində 3674 rubl dəyərində 319 cihaz var idi [8, за 1895 г., с.29-30].

XIX əsrin 90-cı illərinin ortalarında İrəvan Müəllimlər Seminariyasının kollektivində xeyli dəyişikliklər baş vermişdi. 1896-cı ildə Seminariyanın direktoru vəzifəsinə Mixail Miropiyev təyin edilmişdi [5, на 1897 г., адр.-кал., с.286]. O, 1901-ci ildə Cənubi Qafqaz Müəllimlər Seminariyasına direktor vəzifəsinə keçiriləna qədər [4, на 1903 г., адр.-кал., с.383] həmin vəzifəni icra etmişdi. O dövrdə İrəvan Müəllimlər Seminariyasında ilahiyyət fənnini pravoslavlıq üzrə keşiş Aleksey Sokolov tədris etməyə başlamışdı. İlahiyyət fənnini islam (şəriət) üzrə axund Məmmədbağır Qazızadə, erməni-qriqorianlıq məzhəbi üzrə keşiş Gevond Atanasyans tədris etməkdə davam edirdilər. Rus dili və ədəbiyyatı, Rusiya tarixi fənlərini tədris edən İvan Klopov da vəzifəsində qalmışdı. Erməni dilini Yefrem Atamanov tədris etməyə başlamışdı. O, həm də tədris planına yeni əlavə edilmiş hüsnxət, rəsmxət və rəsm dərslərini keçirdi. Tatar (Azərbaycan – Q.Ə.) dilini Rəhim Xəlilov, riyaziyyat fənnini Aleksey Xrapko, təbiət elmləri və coğrafiyanı Vasili Devitski tədris etməyə başlamışdılar. Hazırlıq sinfinin yeni müəllimi Viktor Muxin idi. Seminariyanın nəzdindəki nümunəvi ibtidai məktəbin müdiri Nikolay Suvorov həm də cildləmə ustası kimi, bu sənəti tələbələrə öyrədirdi. Seminariyanın yeni katibi, hesabdarı və nağmə müəllimi Simon Kasradze idi. Xarrat, tokar sənətlərini isə Mkırtiç Elimirzoyev öyrədirdi. Yeni gimnastika müəllimi Vasili Zaytsev, yeni həkim Aleksey Zrelov idilər [5, на 1897 г., адр.-кал., с.286].

XIX əsrin sonunda İrəvan quberniyası əhalisinin yarıdan çoxunu Azərbaycan türkləri təşkil etməsinə baxmayaraq, bəhs edilən dövrdə Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlıların sayı, 1 saylı cədvəldən də aydın olduğu kimi, çox az idi. İrəvan gimnaziyasında və ümumiyyətlə rus dilində təhsil verən bütün məktəblərdə də oxuyan azərbaycanlı uşaqların sayı az olaraq qalırdı. Bunun başlıca səbəbi Rusiya hakim dairələrinin yeritdiyi müstəmləkəçi ruslaşdırma siyasətinə yerli müsəlman-türk əhalinin qarşı çıxması idi. Digər mühüm səbəb dini amil idi. Müsəlman kəndlərində, xristian yaşayış məntəqələrində olduğu kimi, rus dilində təhsil verən məktəb açmaq cəhdi çox vaxt müsəlman din xadimlərinin

kəskin müqaviməti üzündən baş tutmurdu. Əhali üzərində güclü təsiri olan mollalar əhalini qorxudurdular ki, övladlarını hökumətin açdığı rus məktəblərinə qoysalar, orada xristianlaşmağa məruz qalacaq, öz dini etiqadlarından uzaqlaşacaqlar [8, за 1891 г., с.90]. Ona görə də, əksər azərbaycanlı ailələri uşaqlarını keçmişdə olduğu kimi, mollaxana və mədrəsəyə göndərməkdə davam edirdilər. Bu dini məktəblərdə dərslər ənənəvi qaydada keçilirdi. Yalnız İrəvan şəhərində baş məscidin nəzdindəki mədrəsədə ənənəvi fənlərdən əlavə, rus dili və hesab fənlərinin tədrisinə başlanmışdı [8, за 1891 г., с.91].

**Cədvəl 1.** İrəvan Müəllimlər Seminariyasında XIX əsrin son onilliklərində təhsil alan tələbələrin milli tərkibi

| il | azərbay-canlı | rus | erməni | gürcü | dağlı | digər xalqlar | cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1888 | 15 | 8 | 50 | 2 | 2 | 6 | 83 |
| 1889 | 13 | 8 | 40 | 2 | 2 | 4 | 69 |
| 1890 | 12 | 5 | 40 | 5 | 2 | 5 | 69 |
| 1891 | 11 | 6 | 39 | 3 | - | 7 | 66 |
| 1892 | 10 | 6 | 30 | 3 | - | 5 | 54 |
| 1893 | 7 | 10 | 21 | 5 | 1 | 8 | 52 |
| 1894 | 7 | 9 | 21 | 4 | 1 | 10 | 52 |
| 1895 | 7 | 9 | 18 | 1 | 1 | 13 | 49 |
| 1896 | 8 | 13 | 18 | 2 | 1 | 17 | 59 |
| 1897 | 15 | 17 | 15 | 1 | - | 10 | 58 |
| 1898 | 18 | 22 | 20 | 1 | - | 6 | 67 |
| 1899 | 13 | 28 | 22 | 2 | - | 8 | 73 |
| 1900 | 15 | 24 | 27 | 2 | - | 8 | 76 |

1888-ci ildə İrəvan quberniyasında məscidlərin nəzdində 20 məktəb fəaliyyət göstərirdi. Bu məktəb və mədrəsələrdə həmin il 509 şagird təhsil almışdı [8, за 1888 г., с.134]. 1887-ci illə müqayisədə məktəblərin sayı 4 ədəd, şagirdlərin sayı 58 nəfər azalmışdı [8, за 1888 г., с.135].

İrəvan Müəllimlər Seminariyasında tatar (Azərbaycan – Q.Ə.) dili fənnini Rəhim Xəlilov 1901-ci ilə kimi tədris etmişdi [5, на 1903 г., адр.-кал., с.385]. 1902-1904-cü illərdə seminariyada bu fənni Rəşid bəy Şahtaxtinski [5, на 1904 г., адр.-кал., с.406; 5, на 1906 г., адр.-кал., с.258], 1905-1907-ci illərdə Həmid bəy Şahtaxtinski [5, на 1907 г., адр.-кал., с.270; 5, на 1909 г., адр.-кал., с.271], 1908-1916-cı illərdə də Mirzə Cabbar Məmmədov [5, на 1910 г., адр.-кал., с.766; 5, на 1917 г., адр.-кал., с.396] tədris emişdilər. Seminariyada ilahiyyət fənnini islam (şəriət) üzrə tədris edən müəllim isə bütün bu müddət ərzində axund Məmmədbağır Qazızadə dəyişilməz olaraq qalmışdı.

XX əsrin ilk onilliklərində İrəvan Müəllimlər Seminariyasının direktoru aşağıdakı şəxslər olmuşdular: 1902-ci ildə İvan Postyuteviç [5, на 1904 г., адр.-кал., с.406], 1903-1905-

ci illərdə Aleksandr Zazuboviç [5, на 1905 г., адр.-кал., с.415; 5, на 1907 г., адр.-кал., с.270], 1906-1909-cu ilərdə Sergey Streletski [5, на 1908 г., адр.-кал., с.271; 5, на 1911 г., адр.-кал., с.255], 1912-1916-cı illərdə Valentin Dobrotin [5, на 1914 г., адр.-кал., с.305; 5, на 1917 г., адр.-кал., с.396]. Sergey Streletski və Valentin Dobrotinin İrəvan Müəllimlər Seminariyasının direktoru olduqları dövrdə seminariyada təhsil alan azərbaycanlı gənclərin sayı əhəmiyyətli dərəcədə artmışdı. Bu da həmin dövrdə azərbaycanlı tələbələrin seminariyada təhsil almalarını stimullaşdırmaq üçün onların təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi ilə əlaqədar idi.

Qafqaz Tədris Dairəsi müdiri 1905-ci ildə Qafqaz canişini qarşısında məsələ qaldırmışdı ki, İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlı tələbələr üçün 20 təqaüd təsis edilsin. Həmin müraciətdə İrəvan Müəllimlər Seminariyasınıda tikinti işləri üçün 30 min rubl ayrılması da xahiş edilmişdi [9, за 1905 г, с. XX].

Qafqaz Tədris Dairəsi müdirinin 1905-ci il üzrə hesabatından həmçinin bəlli olur ki, həmin il baş verən qarışıqlıqlar, xüsusən erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı qətl və qarətləri gedişində İrəvan şəhərində baş verən toqquşmalar seminariyada tədris prosesinə ciddi zərbə vurmuşdu [9, за 1905 г., с.11]. Seminariyada çalışan azərbaycanlı müəllimlərin və təhsil alan azərbaycanlı tələbələrin təhlükəsizliyi üçün ciddi təhlükə yarandığı üçün, hətta bir müddət dərslər dayandırılmışdı. Seminariyanın nəzdindəki ibtidai məktəbə isə azərbaycanlı valideynlər uşaqlarını oxumağa qoymamışdılar. 1905-ci ildə həmin ibtidai məktəbdə 44 şagird oxuyurdu ki, onların da 7 nəfəri rus, 35 nəfəri erməni, 1 nəfəri gürcü, 1 nəfəri yunan idi [9, за 1905 г., с.17].

**Cədvəl 2**. İrəvan Müəllimlər Seminariyasında XX əsrin ilk onilliklərində təhsil alan tələbələrin milli tərkibi

| il | azərbay-canlı | rus | erməni | gürcü | dağlı | digər xalqlar | cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1901 | 19 | 17 | 31 | 2 | - | 9 | 78 |
| 1902 | 15 | 24 | 28 | 2 | - | 9 | 78 |
| 1903 | 10 | 26 | 23 | 1 | 1 | 9 | 70 |
| 1908 | 18 | 34 | 24 | 2 | 2 | 5 | 85 |
| 1910 | 30 | 36 | 36 | 2 | 9 | 7 | 120 |
| 1911 | 30 | 46 | 37 | 6 | 1 | 8 | 128 |
| 1915 | 22 | 36 | 35 | 4 | 3 | 17 | 117 |

XX əsrin ilk illərində İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlıların sayı, 2 saylı cədvəldən aydın olduğu kimi, yenə də az olaraq qalırdı. Bu hal, həmin dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl nümayəndələrini çox ciddi şəkildə narahat edirdi. İcbari ibtidai təhsil tələbini irəli sürən ziyalılarımız yaxşı bilirdilər ki, bu problemin həlli üçün daha çox sayda ibtidai məktəb müəlliminə ehtiyac vardır. Onlar bu ağır vəziyyətdən müxtəlif çıxış yolları təklif edirdilər.

1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişininin təşəbbüsü ilə regionda ermənilərlə azərbaycanlılar arasında başlanmış qətl və qarətlərin qarşısının alınması üçün onun sarayında azərbaycanlı və erməni nümayəndələrin iştirakı ilə keçirilən toplantıda azərbaycanlı nümayəndələr tərəfindən mühüm problemlərdən biri kimi azərbaycanlı əhalinin maarifləndirilməsi məsələsi qaldırıldı. Azərbaycanlı əhalinin sıx yaşadığı bölgələrdən xeyli uzaqda yerləşən Qoriyə nisbətən, daha münasib yerdə müəllim seminariyası açılması təklifi səsləndi [6, 11.03.1906 г., №56, c.3].

Bu müzakirələrə qoşulan Azərbaycanın görkəmli ictimai xadimi və yazıçısı Nəriman Nərimanov da Qori şəhərində azərbaycanlı əhalinin yaşamadığı və yaşadığı ərazidən uzaqda yerləşdiyi üçün bu şəhərdə fəaliyyət göstərən Cənubi Qafqaz Müəllim Seminariyasının Azərbaycan bölməsinin hər il cəmi 6-7 nəfər ibtidai məktəb müəllimi hazırlamasının kafi olmadığını bildirdi. O, “Həyat” qəzetinin 18 iyun 1906-cı il tarixli sayında dərc etdirdiyi məqaləsində Azərbaycanın hər il 40 müəllim hazırlanmasına ehtiyacı olduğunu, müəllim çatışmadığına görə bəzi kənd məktəblərinin bağlandığını ürək ağrısı ilə qeyd etmişdi. N.Nərimanov vəziyyətdən çıxış yolu kimi, Qori Seminariyasının Azərbaycan şöbəsini azərbaycanlı əhalinin çoxluq təşkil etdiyi bir şəhərə köçürülməsini, ya da Bakıda, Gəncədə yeni müəllim seminariyası yaradılmasını təklif etmişdi. Belə olardısa, Qori şəhərində olduğu kimi pansionda dövlət hesabına qalmaqla oxuyan 60 tələbədən əlavə, daha 60 nəfər öz evində yaşamaqla seminariyada təhsil ala bilər [7, c.99-100], müəllim kadrlarına ildən-ilə artan tələbat ödənərdi.

İrəvan quberniyasının 1908-ci il üzrə şərhində xüsusi qeyd edilmişdi ki, quberniyada ibtidai təhsili inkişaf etdirmək – yeni məktəblər açmaq üçün yaxşı hazırlıqlı müəllimlər çatışmır. Təəssüflə bildirilirdi ki, İrəvan Müəllimlər Seminariyası bu boşluğu doldurmaq iqtidarında deyildir. Son iki ildə bu Seminariya yalnız 2 müəllim vermişdir [8, за 1908 г., c.15].

Qafqaz canişini İ.Voronsov-Daşkov da həmin dövrdə bütövlükdə Qafqaz regionunda tatar (azərbaycanlı – Q.Ə.) və dağlılardan müəllim hazırlanmasında ciddi sıxıntı olduğunu qeyd etmişdi. O, 1910-cu ildə çar II Nikolaya ünvanladığı beşillik idarəçiliyi dövrü haqqında hesabatında bildirmişdi ki, bu sahədə dönüşə nail olmaq üçün “tatar (azərbaycanlı – Q.Ə.) və dağlılardan müəllim hazırlanması üçün İrəvan Müəllimlər Seminariyasında 20 təqaüd təsis edilmişdir. Həmçinin Yelizavetpolda və Temir-xan-şurada daimi pedaqoji kurslar təşkil edilmişdir. Müəllimlər seminariyalarında oxuyan müsəlman tələbələr üçün təqaüdlərin sayı artırılmışdır” [3, c.47]. 1910-cu ildə bütün Qafqaz üzrə 1 müəllim institutu, 7 müəllim seminariyası və 10 pedaqoji sinifdə 763 nəfər (697 kişi və 66 qadın) xüsusi pedaqoji təhsil alırdı. 0nlardan 367 nəfəri rus, 128 nəfəri gürcü, 62 nəfəri tatar (azərbaycanlı – Q.Ə.), 48 nəfəri erməni, 18 nəfəri dağlı, 69 nəfəri digər xalqların nümayəndələri idi [3, c.51].

1915-ci ilə olan məlumata görə İrəvan Müəllimlər Seminariyasında əvvəlki onilliklərdə olduğu kimi, yenə də 13 nəfər pedaqoji işçi  çalışırdı. Seminariyanın direktoru Valentin Dobrotin, İlahiyyat müəllimləri: provaslavlıq üzrə Varlaam Maxaradze, erməni qriqorianlıq

məzhəbi üzrə Vartanes Makaryans, İslam üzrə Axund Məmmədbağır Qazızadə idilər. Seminariyada onlardan əlavə daha 9 müəllim, o cümlədən tatar (Azərbaycan – Q.Ə.) dili müəllimi Mirzə Cabbar Məmmədov çalışırdı [5, на 1917 г., адр.-кал., с.396].

1915-ci ildə İrəvan Müəllimlər Seminariyasında tələbələrin sayı 117 nəfər idi. 2 saylı cədvəldən göründüyü kimi, onların 22 nəfəri azərbaycanlı, 36 nəfəri rus, 4 nəfəri gürcü, 35 nəfəri erməni, 3 nəfəri dağlı xalqların, 17 nəfəri də digər xalqların nümayəndəsi idi. XX əsrin ikinci onilliyində İrəvan Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlıların sayında əhəmiyyətli artım nəzərə çarpırdı. Bu, da azərbaycanlı tələbələr üçün xəzinə hesabına təqaüd ayrılması ilə birbaşa bağlı idi. Müqayisə üçün qeyd edək ki, 1915-c ildə Qoridə yerləşən Cənubi Qafqaz Müəllimlər Seminariyasında 138 nəfər tələbə oxuyurdu: 52 nəfər azərbaycanlı, 26 nəfər rus, 19 nəfər gürcü, 12 nəfər erməni, 1 nəfər dağlı xalqların nümayəndəsi, 28 nəfər başqa xalqların nümayəndəsi. Həmin il Gəncə Müəllimlər Seminariyasında da 64 nəfər tələbə: 9 nəfər azərbaycanlı, 18 nəfər rus, 13 nəfər gürcü, 18 nəfər erməni, 1 nəfər dağlı, 5 nəfər digər xalqın nümayəndəsi təhsil alırdı [5, на 1917 г., отд. стат., с.290].

İrəvan Müəllimlər Seminariyası XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağı olmuşdu. Seminariyanı bitirən azərbaycanlı gənclər müxtəlif bölgələrdə məktəb müəllimi kimi çalışaraq, gənc nəslin maariflənməsinə böyük töhfə vermişdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhz bu baxımdan İrəvan Müəllimlər Seminariyasının fəaliyyətini yüksək qiymətləndirmişdir: “40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır” [1].

Seminariyanın məzunu olan gənc azərbaycanlı müəllimlər pedaqoji fəaliyyətlərinə azərbaycanlıların yaşadığı kəndlərdə yeni ibtidai məktəblər açaraq, ya da mövcud ibtidai kənd məktəblərində müəllimlik edərək xalq kütlələri arasında maarifin və elmi biliklərin yayılması, kütləvi savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər. Onlar həmçinin işlədikləri bölgələrin mədəni həyatında fəal iştirak etmiş, həmin yerin tarixi, adət-ənənələri, folkloru haqqında materiallar toplayaraq dövri mətbuatda maraqlı məqalələrlə çıxış etmişdilər. Məsələn, Seminariyanın məzunu Rəşid bəy İsmayılov 1903-cü ildən Tiflisdə nəşr olunanan “Şərqi-Rus”, “Tiflisskiy listok”, “Novoe Vremya” qəzetlərində çalışmış, “Müxtəsər Qafqaz tarixi” əsərini yazmışdı. Seminariyanın digər məzunu Həşim bəy Vəzirov Şuşada real məktəbdə müəllimlik edərkən teatr tamaşaları təşkil etmiş, daha sonra Bakıda “İrşad”, “Təzə həyat” qəzetlərinin redaktoru olmuşdu. Seminariyanın müəllimi Mirzə Cabbar Məmmədov və tələbələri 1917-ci ildə İrəvanda ilk dəfə Azərbaycan dilində “Burxani-həqiqət” jurnalını nəşr etmişdilər. Seminariya məzunlarının bir qismi isə daha sonra Rusiya və Avropa universitetlərində təhsillərini davam etdirmiş, müxtəlif ixtisaslar üzrə mütəxəssis kimi önəmli vəzifələrdə çalışmışdılar.

**Ədəbiyyat**


1. Əliyev İ.H. İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam. 29 dekabr 2021-ci il // https://president.az/az/articles/ view/55116
2. Səfərov R. Qori və İrəvan Müəllimlər Seminariyalarının milli təhsil tariximizdəki yeri və rolu haqqında / http://milliarxiv.gov.az/en/ 2018-03-01
3. Всеподданнейший отчет за пятилетие управления Кавказом генерал-адъютанта графа И.И.Воронцова-Дашкова / [соч. графа Воронцова-Дашкова]. - СПб.: Гос. тип., 1910. - 60 с.
4. Доклад попечителя Кавказского учебного округа об отпуске средств Бакинской женской учительской семинарии на введение преподавания татарского языка и мусульманского вероучения. 22 февраля 1917 года / РГИА, ф. 1276 (Фонд Совета Министров (1905-1917), оп. 19, д. 1369, л.1-3.
5. Кавказский календарь на 1881-1917 гг. Тифлис: Типография Канцелярии Наместника на Кавказе, 1882-1916.
6. Каспий, 1906 г.
7. Нариманов Н.Н. Где быть Горийской Семинарии? / Избранные произведения. В 3-х томах. Т.1. Баку: Азернешр, 1988, с.96-100.
8. Обзор Эриванской губернии за 1883-1914 гг. - Эривань: Тип. Эриван. губ. правления, 1884-1915.
9. Отчет попечитетеля Кавказского Учебного Округа за 1905 год. Тифлис: Типография канцелярии наместника на Кавказе, 1906.
10. Полное собрание законов Российской Империи (ПСЗРИ). Собрание второе.Том. LV (55-й). Отд. первое с 19 февраля 1880 по 28 февраля 1881г . Санкт Петербург - 1884, с.630.
11. Рустамов Ф. Ереванская учительская семинария – 140 https://azertag.az/ru/xeber.18/01/2022
12. Семенов И.Я. Русские в истории Армении. Ереван: «издательский дом Лусабац», 2009, 298 с.

13 Современная летопись. Наши учебные заведения. Кавказский Учебный Округ в 1896 году. Журнал Министерства Народного Просвещения. 1898, №4, отд.4, с.29-60 Кавказский Учебный Округ / https://ourbaku.com/index.php